VF99, hibrid 529 və hibrid 121sortlarından pilləli çarpazlaşdırma yolu ilə alınmışdır. 1998-ci ildə Seleksiya Nailiyyətlərinin Sınağı və Mühafizəsi üzrə Dövlət Komissiyası tərəfindən rayonlaşdırılmışdır (patent №00047).

Kolu adi, orta yarpaqlanan, determinant tipli və yığcamdır. Əsas gövdənin hündürlüyü 54-60 sm, kolun orta diametri 50-55 sm, əsas zoğların sayı 4-6-dır. Yarpağı adi tipli, tünd yaşıl rəngli, ayası enli, səthi orta dərəcədə qırışıqlı olub, iridir (25-28 sm).

Bitki üzərində ilk çiçək salxımları əsasən 7 yarpaqdan, növbəti salxımlar isə ondan 1-2 yarpaq sonra əmələ gəlir. Çiçək salxımı sadə (I tip) və aralıq (II tip) olub, qısadır (8,0-10,0 sm). Salxım üzərində meyvələrin sayı 3-5 ədəd olur. Meyvə saplağı dirsəksiz olub, $J_1$ genlidir.



Meyvələr yumru formalı (ind. 0,90), səthi sığallı, tünd qırmızı rəngli, ləkəsizdir. Onların orta kütləsi 110-130 q-dır. Meyvələr kifayət qədər bərkdir. Bərklik göstəriciləri aşağıdakı kimidir: meyvələrin saplaqdan xüsusi ayrılma qüvvəsi 22,2 q/1q, deşilməyə qarşı davamlılığı 104,5 q/mm$^2$, dinamik təzyiqə qarşı davamlılığı 1,23 Nm, əzilməyə qarşı davamlılığı 4,5 kq-dır, yəni yetişmiş təzə meyvələr orta hesabla 4,0-4,6 kq qüvvə ilə təsir etdikdən sonra onların qabığında ilk çatlar əmələ gəlir.

Meyvələrin belə bərklik göstəricisinə malik olması, məhsulun uzaq məsafələrə az itki ilə daşınmasına zəmin yaradır. Meyvələrdə toxum yuvalarının sayı 4-6 ədəddir və onlar quruluşca düzgündür. Meyvələrin biokimyəvi tərkibi aşağıdakı kimidir: quru maddə 6,0-6,2%, ümumi şəkər 2,8-3,4%, turşuluq 0,38-0,48%, C vitamini 19,7-23,7 mq%. Sort ortayetişəndir, kütləvi çıxışdan ilk meyvələrin yetişməsinə qədər 108-115 gün keçir. Orta ümumi məhsuldarlıq Abşeron və Lənkəranda 497,5 və 597,7 s/ha; o cümlədən əmtəəlik məhsuldarlıq, müvafiq olaraq, 455,7-528,4 s/ha olmuşdur.

Məhsulun istifadə məqsədinə görə Leyla universal xarakterli sortdur, yəni onun meyvələri yaxşı dad keyfiyyətinə görə həm təzə halda yemək üçün, həm də bütöv halda konservləşdirmək üçün yararlıdır. Sort fuzarioz və meyvələrinin təpə çürüməsi xəstəliklərinə qarşı davamlıdır. Bu sortun Abşeron və Lənkəran-Astara bölgələrində keçirilmiş sınaqları zamanı hər hektardan müvafiq olaraq, 415,0-675,0 s/ha məhsul alınmışdır ki, bu da nəzarət Volqoqradski 5/95 sortuna nisbətən hər hektardan 95-100 sentner çoxdur. Sortun bir sıra özünəməxsus bioloji xüsusiyyətlərinin şərh edilməsi ondan təsərrüfatlarda yüksək məhsul götürülməsi üçün vacibdir.

***Leyla pomidor sortunun əsas təsərrüfat-bioloji əlamətlərinin fenotipik dəyişkənlik həddi***

| Əsas əlamət və göstəricilər | Orta göstəricilər, $X \pm m_x$ | Variasiya əmsalı, V, %-lə |
|---|---|---|
| I. Vegetasiya dövrünün fazalar üzrə müddəti (günlə)<br>- kütləvi çıxışdan çiçəkləməyə qədər; | 52±0,6 | 6,0 |
| - kütləvi çıxışdan ilk mevlərin yetişməsinə qədər; | 108±0,8 | 5,8 |
| - I və II salxımlarda olan meyvələrin kütləvi yetişməsinə qədər; | 11±0,8 | 15,0 |
| II. Məhsuldarlıq, s/ha | 597,0±0,4 | 18,4 |
| III. Meyvənin əsas morfoloji və biokimyəvi göstəriciləri: | 110-130 | 5,6 |
| - bir ədədin orta kütləsi, q | 58,5±0,48 | 3,8 |
| - orta hündürlüyü, mm | 65,3±0,54 | 4,1 |
| - orta diametri, mm | 0,89-0,94 | |
| - indeksi | 6,0±0,4 | 6,2 |
| - quru maddənin miqdarı, % | 2,8±0,3 | 8,3 |
| - şəkər, % | 0,46±0,6 | 28,5 |
| - ümumi turşuluq, % | 19,7±1,4 | 21,6 |
| - "C" vitamini, mq% | | |
| IV. Toxum çıxımı (məhsulun kütləsinə görə, %-lə) | 0,30-0,35 | |
| V. 1000 ədə toxumun orta kütləsi, q | 3,0-3,2 | |

Sortun quraqlığa davamlılığı öyrənilərkən müəyyən edilmişdir ki, sınaqdan

keçirilmiş 19 pomidor sortnümunələri arasında Leyla sortu, quraqlığa nisbətən davamlı nümunələr qrupuna daxildir. Belə ki, bu qrupa daxil olan sortların toxumları saxarozanın 2,5 atm. qatılıqlı məhlulunda 70-90%-ə qədər cücərti vermişdir.

Qeyd etdiyimiz kimi, sortun yüksək məhsuldarlığı ilk növbədə onun çiçəklərinin ətraf mühitin ekstremal temperatur hədlərində meyvəbağlama qabiliyyətinin yüksək olması müəyyən edilir. Sortun qametofit inkişaf dövründə istiliyə davamlılığın öyrənilməsi göstərmişdir ki, o tozucuqların yüksək temperaturda həyatilik qabiliyyətinə (68,7%) görə birinci qrup nümunələri sırasına aiddir.



Tozcuqların fertillik qabiliyyəti (Asetokarmin metodu ilə) öyrənilərkən Leyla sortu $8\pm1^{0}C$-dən $47\pm1^{0}C$ hədlərində 63,5-87,3% fertilliyə malik olmuş və istiliyə davamlılığına görə II qrup sortları sırasına aid edilmişdir.

***Aqrotexniki xüsusiyyətləri*** – Leyla sortunun stansiyalararası və təsərrüfat sınaqları əsasən bölgələr üçün qəbul edilmiş aqrotexnikaya müvafiq olaraq 70x30 sm əkin sxemində keçirilmişdir. Həmçinin Abşeron şəraitində sortun müxtəlif qida sxemlərinə reaksiyası müəyyənləşdirilərkən Volqoqradski 5/95 nəzarət sortu ilə müqayisədə 70x30 sm (nəzarət), (90+50):2x30 sm, (90+50):2x40 sm, (110+50):2x30 sm, (120+40):2x30 sm və (120+60):2x30 sm əkin sxemlərində ən yüksək məhsuldarlıq (529,0 və 552,1 s/ha)-(90+50):2x30 sm və (90+50):2x40 sm sxemlərində əldə edilir. Bu sxemlərdə nəzarət Volqaqradski 5/95 sortunun məhsuldarlığı, müvafiq olaraq, 408,3-423,7 s/ha-dan çox olmamışdır (110+50):2x30 sm).




Beləliklə, Abşeron şəraitində Leyla sortu üçün ən əlverişli əkin sxemləri 70x30 sm və (90+50):2x40 sm hesab edilmişdir. Abşeron şəraitində bu sort üçün ən optimal gübrə norması $N_{90}P_{100}K_{110}$ (təsiredici maddə hesabı ilə) qəbul edilmişdir.

*Azərbaycan Respublikası*
*Kənd Təsərrüfatı Nazirliyi*
*Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu*



# Pomidor LEYLA sortu